**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№374/4** **28 fevral 2025-ci il**

# “İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər” barədə

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2024-cü il 29 dekabr tarixli 372/5 nömrəli “Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2019-cu il 31 oktyabr tarixli 313/3 nömrəli qərarı ilə I redaksiyada, 2021-ci il 12 iyul tarixli 332/7 nömrəli qərarı ilə II redaksiyada təsdiq edilmiş “İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər”ə dair arayış barədə” Qərarına uyğun olaraq yaradılmış işçi qrupu tərəfindən hazırlanmış “İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər”in yenidən təkmilləşdirilmiş layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər” Şura üzvlərinin və müvafiq rəyçilərin irad və təklifləri nəzərə alınmaqla təsdiq edilsin (əlavə olunur).
2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, on gün müddətində “İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər”in auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılması təmin edilsin.
3. “İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər”ə cavab verən auditor təşkilatlarının və sərbəst auditorların tender və kotirovkalarda iştirakları məqsədəmüvafiq hesab edilisin.
4. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (B.Orucov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitəyə (E.Əliyev) tapşırılsın ki, tender və kotirovkalarda iştirak edən auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinin operativ monitorinqi aparılsın və nəticələri barədə Palatanın rəhbərliyinə arayış təqdim edilsin.
5. Auditorlar Palatası Şurasının 2019-cu il 31 oktyabr tarixli 313/3 nömrəli qərarı ilə I redaksiyada, 2021-ci il 12 iyul tarixli 332/7 nömrəli qərarı ilə II redaksiyada təsdiq edilmiş “İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər” qüvvədən düşmüş hesab edilsin.
6. Bu qərarın və “İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər”in mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**